*Adalet.az yazıçı Azad Qaradərəli ilə müsahibəni təqdim edir:*



# "Ölənə qədər ona ata demədim"

**- Azad müəllim dayanmadan yazırsınız, bu yaxınlarda jurnal çap etdiniz, çox aktivsiniz. Bu qədər enerjini nəyə borcluyuq?**

- İnsanın daxili inamı, hədəfləri olanda enerjisi artır. O daxili inamın və bəlli hədəfin olmaması üzündən ya fiziki, ya da ruhi baxımdan sıradan çıxan istedadlı adamlar var: ya narkomaniyaya qurşanırlar, ya daha güclü iradə sahiblərinin təsiri altına düşürlər, ya da intihara əl atırlar. "Yazı"da Mixayıl Noymənin "Mirdatın kitabı" adlı romanını dərc edirdik, lakin çapını bir nəşriyyat öz üzərinə götürdüyünə görə, yarımçıq qaldı. Orada insanın öz güvəninin onu haralara apara biləcəyi böyük ustalıqla təsvir olunub.

Özündən danışmaq kimi çıxmasın, ona görə dayanmadan yazıram ki, kiməsə lazım olduğunu bilirəm. Qırx il qabaq yazdığım "Qar ağlığı" hekayəmdə və üzərində işlədiyim "Şüşə ev" romanımda qənaətim eyni olub.

O ki qaldı, "Yazı" dərgisi, onun uşaqlar üçün əlavəsi olan "Yemlik", dərs aparmağım və s. Bunlar da elə o inam və hədəfin bəhrələridir. Bilmədiyim işə heç qol qoymadım, lazımsız şeylərə vaxt sərf etmədim.

Ədəbiyyatın gücünə və digər gücləri aşa bilməyinə aşırı inamım var.

**- Mənə elə gəlir ki, siz yazıçı kimi son vaxtlar tanınmağa başlamısınız. Siz necə düşünürsünüz, 80-90-cı illərdə Azad Qaradərəli niyə tanınmırdı?**

- Bilirsiniz, yazıçı üçün zaman və məkan məhfumu şərtidir. 80-90-cı illərdə tanınırdın, sadəcə, indiki qədər deyil. Bunun bir sıra səbəbləri vardı. Birincisi, əyalətdə yaşayırdım, bu da Azərbaycan reallığında yazıçı üçün çox problemlər yaradırdı. İkincisi, ilk kitabım məndən asılı olmayan səbəblərdən düz beş il gecikdi, 1987-ci ildə, 33 yaşımda çıxdı. Bu barədə çox yazmışam, ona görə də, təkrar etmək istəmirəm. Və nəhayət, mənim nəslimin qismətinə Azərbaycanın müstəqillik savaşı illəri düşdü. Mən də daxil, o zamankı gənclər gözünü qırpmadan bu savaşın ön sıralarına atıldı. Nə yaxşı ki, bunu etdik.

Və o illərdə yaşadıqlarımızı indi yazırıq. Yazıçı üçün yazdıqlarını yaşamaq çox önəmlidir. Haçansa yazmayıbsa, bu fasilə vermək anlamına gəlməz, toyuq çinadanına dən yığan kimi yazıçı da susqunluq dövründə material toplayır... Bunun bir çox örnəkləri var. Məsələn, Joze Saramaqo ilk kitabını çap etdirəndən sonra 19 il bir sətir də yazmayıb. O ki qaldı, indi tanınmağıma, kifayət qədər tanındığımı hesab etmirəm. Əsl yazıçının tanınması üçün böyük mühit olmalıdır, renessans havası əsməlidir. Bu barədə "Renessans həsrəti" adlı esselər kitabımda daha geniş yazmışam.

**- Uşaqlığınızı necə xatırlayırsınız?**

- Uşaqlıq yaradıcılığımın ən böyük hissəsidir. "Burda kişi var?" kitabımda"Dörd kişi haqqında üç hekayə" adında əsərim yadıma düşür. Uşaqlığımın bir gününü vermişəm orda. O hekayədə necə ağır, necə məlhəm, necə kişiyanə bir uşaqlığım olduğunu görmək olar. "Kişiyanə" sözünü elə-belə demədim ki?! Balaca olanda atamla anam ayrılıblar. Və hələ 5-6 yaşımdan özümü evin kişisi hesab etmək duyğusuyla yaşamışam. Baxmayaraq ki, yaşı 80-ni haqlamış nənəm vardı, amma mən tez böyümək və anama arxa olmaq istəyi ilə böyümüşəm.

Və ən ağırı isə o idi ki, atam ilk müəllimim olub və mənə riyaziyyatı öyrətmək üçün dərsdə min hoqqadan çıxsa da, hətta döysə də, bu fənni öyrənmədim. Onun "Ana dili"ndən verdiyi çalışmaları isə üzündən heç vaxt köçürmədim, başlığı yazan kimi qalanını özümdən uydurdum. Bəlkə də onlar mənim ilk yazılarım idi, 8-9 yaşlarında şagird dəftərinə həkk olunmuşdu. Kişi nə qədər eləsə də, özünü mənə sevdirə bilmədi. Ölənə qədər ona "ata" demədim.

Uşaqlığımda elə yerlər var, mən onları yaza bilmirəm, yəqin, heç vaxt da yaza bilməyəcəm.

**= Şeir mənə yastı təpələri xatırladır, nəsr isə dağın döşündə ora-bura qaçan vəhşi heyvanları. Sizin gözlərinizdən üfüq necə görünür?**

- Bəri başdan deyim ki, şeirə çox atəşli bir istəyim olub. Elə indi də var. Yəni 17 yaşıma qədər şeir yazmışam, ağlım kəsəndə isə daşını atdım.

Biz tərəflər dağətəyi olduğundan o ucsuz-bucaqsız yastanlarda əvvəllər geniş taxıl zəmiləri vardı. O taxıl zəmiləri ilboyu adamın gözünü öz yaşıllığı ilə doydurardı. Yayda biçin gələrdi və insanlar zəminin məhsulunu yığıb-yığışdırmaq üçün səfərbər olardı. Biçin sonrası samanı, bəlimi yığıb tayalara vurardılar.

Bax, bu sonsuz taxıl zəmiləri mənə nəsri, daha doğrusu, romanı xatırladıb. Həmişə bitib-tükənməyən bərəkətli, ağır zəhmət tələb edən iş kimi.

Bir də kiçik sahələrə yazlıq buğda səpər, çəpişi, quzunu ora ötürərdilər. "Xora" deyilən bu yazlıq sahələr mənə şeiri xatırladıb - həmin yaşıllıq, həmin zəmi. Amma fərq ənginlikdədir, sonsuzluqdadır. Bəlkə də fikrimi dəqiq çatdıra bilmədim. Deməyim odur, şeirdəki yığcamlıq, fikrini tam ifadə edə bilməmək məni nəsrə çəkdi. Amma içimdə şeirə həvəs ölməyib, hərdən iri həcmli nəsr əsərlərimdə şeir parçalarıyla o istəyi ifadə etməyə çalışıram.

Daha bir metafora işlədəcəm, bununla bu sualı yekunlaşdıraq: bizdə min illik çinarların kölgəsində bir "Kinav" bulağı vardı. Bu bulaq, üstündəki ehtişamıyla şeiri xatırladıb.

Amma yüzlərlə bulaqlar birləşib kəndimizin qabağından axan böyük Bəsit çayını yaradardı və biz onun suyundan həm içər, həm balığını tutar, həm də yayda çimərdik. Bax, mənim üçün nəsr də o çay kimidir.

**- Xatirələr sizə əzab verirmi?**

- Ömrü boyu "ata" deyə bilmədiyim atam yoxdur, guya böyüyüb arxa olacağım, amma hələ indi də qaraçuxasıyla arxamda dayanıb mənə "düz yaşa" deyən anam yoxdur, bir də ən kədərlisi - uşaqlığımın keçdiyi o yer-yurd indi düşmən tapdağındadır, o da elə yox kimidir.

Amma o xatirələr məni yaşadır, yazdırır həm də. Yazdıqlarımın çoxu uşaqlığım, yerdə qalanı isə böyüdükdən sonra yaşadıqlarımdır.

**- Keçmiş rus prezidenti Boris Yelçin deyir ki, vətən insanın vicdanından başlayır. "Səfillər" romanında vicdan hər səhifədə, hər cümlədə canlıdır. Vicdansız adam ədəbiyyat yarada bilər?**

- Bu, qəliz məsələdir. Bizdə indi hərənin əlində bir tərəzi var; satan da çəkir, alan da. Hərə olanını çıxardır bazara. Malını, pulunu, evini, torpağını, namusunu və vicdanını satan... Ən qorxulusu bilirsiniz nədir? Vicdan məsələsi! Hər şeyin başında o gəlir. Mən qəti inanmıram ki, vicdansız yazıçı yaxşı mətn yarada bilər. Yazıçı ölkənin, xalqın tarazlığını saxlayan yeganə adamdır. O da ağır basan tərəfə çıxsa, "Şəhərcik" romanımda yazdığım kimi xalqın, ölkənin bir yanı əyilər, qəza baş verər. Qəzalı yerdə yaşamaq isə çox təhlükəlidir.

**- Yeni kitablarınız, yeni fəaliyyətləriniz olacaqmı?**

- Çoxdan kitab halında çıxası "Kuma-Manıç çökəkliyi" romanım nəhayət, çap olundu. "Yazı"da "Cülyettanın sağ tərəfinə toxunmaq" adlı romanım dərc olunub, onu da haçansa kitab eləmək fikrim var. Bir hekayələr kitabım da hazırdır, görək hansı nəşriyyat boyun olacaq. Türkiyədə bir kitabımı buraxmağı düşünürəm. İngiliscə də bir hekayələr kitabım çapa hazırdır, görək nə edə bilirik. İndi "Şüşə ev" adlı roman yazıram. "Yazı"da hissə-hissə çap olunur...

"Yazı"nın yeni nömrəsini hazırlayıram. "Yemliy"i də Sevinc Elsevərlə birgə buraxacağıq... Ömür vəfa eləsə, görüləsi işlərimiz çoxdur.

**Oğuz Ayvaz**